DOI: 10.5281/zenodo.14281824

# MÜASİR DÖVRDƏ ƏTRAF MÜHİTİN EKOLOJİ PROBLEMLƏRİ: HÜQUQİ ASPEKTLƏR

**Etibar Əli oğlu Əliyev,**
**Azərbaycan Hüquqşünasları Konfederasiyasının üzvü, Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının professoru, hüquq elmləri doktoru.**
e-mail: a-etibar@rambler.ru,
telefon:+99450 220 24 42;

**Mirzəyeva Leyla Eytibar qızı,**
**Azərbaycan Respublikası Sumqayıt İnzibati Məhkəməsinin hakimi, hüquqşünas.**
e-mail: leylamirzayeva88@mail.ru,
telefon:+99455 310 55 85.

*Məqalədə müəlliflər tərəfindən müasir dövrdə ətraf mühitin ekoloji problemlərin tənzimlənməsinin hüquqi aspektləri nəzərdən keçirilir. Qeyd edilir ki, ətraf mühitin və ekologiyanın, eləcə də təbii sərvətlərin qorunması mühüm dövlət və ümumxalq əhəmiyyəti olan bir məsələdir. Bəşəriyyətdə insan həyatı, cəmiyyətin inkişafı təbiətlə, ətraf mühitlə sıx bağlı olduğuna görə, insanların və gələcək nəsillərin sağlam mühitdə yaşaması ətraf mühitin və təbii sərvətlərin səmərəli mühafizə edilməsi amili ilə şərtlənir. Bu kontekstdə ekoloji-hüquq münasibətlərinin tənzimlənməsi xüsusi aktuallıq kəsb edir.*

**Açar sözlər:** ətraf mühit, təbii sərvətlər, ekoloji təhlükəsizlik, insan hüquqları, atmosfer, fauna və flora aləmi, ekoloji-hüquq münasibətləri, hüquqi tənzimləmə.

Hər şeydən əvvəl qeyd etməliyik ki, müasir dövrdə ətraf mühitin və ekologiyanın, eləcə də təbii sərvətlərin qorunması mühüm dövlət və ümumxalq əhəmiyyəti olan bir məsələdir. Bəşəriyyətdə insan həyatı, cəmiyyətin inkişafı təbiətlə, ətraf mühitlə sıx bağlı olduğuna görə, insanların və gələcək nəsillərin sağlam mühitdə yaşaması ətraf mühitin və təbii sərvətlərin səmərəli mühafizə edilməsi amili ilə şərtlənir [9, s.4]. Odur ki, ətraf mühiti qoruyub saxlamaq və gələcək nəsillərə ötürmək bəşər övladının qarşısında duran ən ümdə vəzifələrdən biridir. Bu aspekt isə cəmiyyət və təbiət arasında qarşılıqlı daimi münasibətlərin mövcud olmasını, insan hüquqlarının qorunmasını zəruri edir [8]. Dünyada baş verən sənaye inqilabları, müharibələr və artan demoqrafik problemlər təbiətdəki tarazlığı pozmaqla dünyanı bərpası, bəlkə də mümkün olmayan, ekoloji fəlakətlərlə qarşı-qarşıya qoyur. Nəticədə ekoloji təhlükəsizlik, yəni ekosistemin tarazlığı pozulur, fauna və flora aləmi mənfi təsirə məruz qalır, atmosfer, torpaq və su ehtiyatları çirkləndirilir, eləcə də ətraf mühitə ciddi ziyan vurulur. Ekoloji təhlükəsizlik dedikdə isə insanın və cəmiyyətin həyati vacib maraqlarının, ətraf mühitin ona antropogen və təbii təsirlər nəticəsində yaranan təhlükələrdən qorunmasının təmin edilməsi başa düşülür. Belə halda təbiətin bir parçası olan insan fərdi və kollek-

tivləri törətdikləri hüquqpozmalarla ekosistemə birbaşa müdaxilə edən bir varlıq kimi ön plana çıxır [11, s.3].

Bu baxımdan, hər bir dövlətin sosial-iqtisadi inkişafı, əhalinin maddi və mənəvi tələbatının ödənilməsi, xalqların güzəranının yaxşılaşdırılması, habelə ekoloji təhlükəsizliyin etibarlı formada təmin edilməsi ətraf mühitin mühafizəsi məsələsini ciddi şəkildə qarşıya qoyur. Göstərilən məsələnin ayrı-ayrı dövlətlər və dünya birliyi tərəfindən dərk edilməsi ekoloji fəlsəfənin və hüququn ən mühüm problemidir. Cəmiyyətdə ekoloji mədəniyyətə nail olunması da vacib məsələlərdəndir [9, s.211-213].

Bu kontekstdə qeyd edə bilərik ki, Azərbaycan Respublikasının Konstitusiyasında (1995-ci il) ekologiya sektorunda ümumi münasibətləri tənzimləyən hüquq normaları öz əksini tapmışdır [1, 52 s.]. Belə ki, Konstitusiyada təsbit olunmuşdur ki, təbii ehtiyatlar hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur (maddə 14). Həmçinin sağlam ətraf mühitdə yaşamaq hüququ ilə bağlı Konstitusiyada qeyd edilir ki, hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır. Hər kəs ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququna malikdir. Heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz. Dövlət ekoloji tarazlığın saxlanılmasına, yabanı bitkilərin və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat verir (maddə 14). Konstitusiyanın digər maddəsi belə adlanır: Sağlamlığın qorunması hüququ (maddə 41). Burada göstərilir ki, hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır. Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür, sanitariya-epidemiologiya salamatlığına təminat verir, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaradır. İnsanların həyat və sağlamlığı üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslər qanun əsasında məsuliyyətə cəlb edilirlər. Eləcə də tarix və mədəniyyət abidələrinin qorunması (maddə 77) və ətraf mühitin qorunması (maddə 78) Konstitusiyada əsas vəzifə kimi müəyyənləşdirilmişdir.

Eyni zamanda, qeyd etməliyik ki, ətraf mühit və ekoloji münasibətlərin tənzimlənməsi istiqamətində Azərbaycan Respublikası qanunvericiliyinin tərkib hissəsini təşkil edən aşağıdakı spesifik normativ hüquqi aktlar qəbul olunmuşdur:

– "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu (1999-cu il);

– "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu (1999-cu il);

– "Əhalinin radiasiya təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunu (1997-ci il);

– "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanunu (1998-ci il);

– "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanunu (2000-ci il);

– "Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikasının Qanunu (2002-ci il);

– "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanunu (2008-ci il);

– "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (2002-ci il) və s. [17.2].

Ekoloji təhlükəsizlik probleminə onun aktuallığı və rasional həlli nəzərə alınaraq, dünya birliyi tərəfindən xösusi səylər göstərilir. Təsadüfi deyildir ki, bu istiqamətdə ye-ni höquq sahəsi – beynəlxalq ekologiya hüququ təşəkkül tapmışdır. Beynəlxalq ekologiya hüququ dedikdə ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə olunması ilə bağlı beynəlxalq (publik) hüquq subyektləri arasında yaranan münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür. Bu normalar vasitəsi ilə həyata keçirilən beynəlxalq-hüquqi tənzimetmə iki əsas məsələyə yönəlmişdir: həmin məsələlərdən biri ətraf mühitin çirklənməsinin qarşısının alınmasından, digəri isə təbii resurslardan rasional istifadəni təmin etməkdən ibarətdir [6, s.618-621]. Ətraf mühitin mühafizəsi və təbii resurslardan rasional istifadə sahəsində beynəlxalq-hüquqi tənzimetmə həm də beynəlxalq ekoloji əməkdaşlığın həyata keçirilməsinə yönəlmişdir. Belə qarşılıqlı faydalı əməkdaşlıq olmadan ətraf mühitin mühafizəsi və təbii resurslardan rasional istifadə qeyri-mümkündür.

Müasir beynəlxalq hüquq elmində (doktrinada) «ekologiya» terminindən istifadə daha geniş xarakter almaqdadır. Bu isə təsadüfi xarakter daşımır. Belə ki, ekologiyanın beynəlxalq-hüquqi mühafizəsi məsələsi müasir dövrün qlobal problemləri sferasına daxildir. İnsan fəaliyyəti nəticəsində ətraf mühitə və təbiətə olan təsirlər ekoloji böhranın yaranmasına səbəb olur ki, belə böhran təkcə ayrı-ayrı ölkələrin deyil, dünya birliyinə daxil olan bütün dövlətlərin maraqlarına toxunur. Ekoloji böhrandan çıxmaq isə ekoloji təhlükəsizliyə nail olunmasını zəruri edir. Ekoloji təhlükəsizlik XX əsrin axırlarında ümumi təhlükəsizlik sisteminin komponentlərindən biri kimi tanınmağa başlamışdır.1 Bu məsələ öz ifadəsini Ətraf mühit və inkişaf üzrə Ümumdünya Komissiyasının «Bizim ümumi gələcəyimiz» adlı məruzəsində (1987-ci il) tapmışdır.

Ekoloji təhlükəsizliyi beynəlxalq səviyyədə təmin etməkdən ötrü dövlətlər arasında müvafiq əməkdaşlıq həyata keçirilməlidir. Belə əməkdaşlıq həm də onun üçündür ki, beynəlxalq aləmdə universal ekoloji hüquq qaydaları formalaşsın və möhkəmlənsin.

Yeri gəlmişkən qeyd edək ki, ekologiya (yunanca «oikos» – ev, yaşayış yeri və «loqos» – elm mənalarını ifadə edir) canlı orqanizmlər və onların birliklərinin öz aralarında və onlarla ətraf mühit arasında münasibətlər haqqında elmdir [15, s.23]. Elmi termin kimi «ekologiya» anlayışını ilk dəfə 1866-cı ildə alman alimi E.Nekkel işlətmişdir [10, s.310].

Beynəlxalq hüququn müstəqil sahələrindən biri kimi beynəlxalq ekologiya hüququnun tanınmasında və formalaşmasında onun sahəvi (xüsusi) prinsipləri böyük rol oynayır. Belə ki, xüsusi prinsiplər beynəlxalq ekologiya hüququnun müstəqil hüquq sahəsi hesab edilməsini şərtləndirirən meyarlardan biridir. Bu sırada aşağıdakı prinsipləri fərqləndirə bilərik: ətraf mühitin mühafizəsi, təbii ehtiyatlardan səmərəli istifadə etmək, dövlətlərin öz milli təbii ehtiyatlarına suveren hüququ, dövlətlərin ekologiyaya ziyan yetirməsinə görə məsuliyyət daşıması, ekologiyaya transsərhəd zərər vurulmasının qarşısının alınması, ekologiyaya vurulmuş ziyanın kompensasiya olunması, ekologiya sahəsində dövlətlərin beynəlxalq əməkdaşlıq etməsi, ekologiyanın çirkləndirilməsinin

qarşısının alınması, ekologiyanın çirkləndirilməsinə görə haqq ödəmək prinsipi, beynəlxalq ekoloji təhlükəsizlik prinsipi və s.

Ümumi beynəlxalq təhlükəsizlik sisteminə bir neçə element daxildir ki, ekoloji təhlükəsizlik onlardan biridir. Unutmaq olmaz ki, ekologiyanın beynəlxalq-hüquqi mühafizəsi və beynəlxalq təhlükəsizlik amilləri arasında birbaşa əlaqə mövcuddur. Beynəlxalq ekoloji təhlükəsizlik prinsipi də məhz bu əlaqənin mövcud olmasını müəyyənləşdirir.

Hüquq dərsliklərində ayrı-ayrı müəlliflər tərəfindən beynəlxalq ekologiya hüququnun həm də digər sahəvi (xüsusi) prinsipləri fərqləndirilir. Belə prinsiplərə aşağıdakılar aiddir: 1) ətraf mühiti elmi tədqiqetmə azadlığı prinsipi; 2) fövqəladə hallarda əməkdaşlıq etmək prinsipi; 3) ətraf mühitin mühafizəsinə dair bağlanmış beynəlxalq müqavilələrə əməl olunmasına nəzarət prinsipi; 4) ətraf mühiti fövqəladə hallardan və ya təbii fəlakətlərdən ziyan çəkən dövlətlərə kömək etmək prinsipi və s. [12, s.105-126].

Ekologiya sahəsində beynəlxalq mexanizmlər kontekstində dövlətlərin COP formatında əməkdaşlıq etməsini, xösusilə, vurğulamalıyıq. Belə ki, qlobal ekoloji problemlərin həlli istiqamətində BMT sistemi səmərəli fəaliyyət həyata keçirir [13, s.103-127]. Təqdirəlayiq hal kimi qeyd etməliyik ki, BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədi ilə 1992-ci ilin iyun ayında Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturasının ingilis dilindən tərcüməsi “Tərəflər Konfransı” deməkdir. Tərəflər Konfransı İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali orqan statusuna malikdir. Burada Tərəflər Konvensiyaya üzv olan 198 ölkədir və əgər tərəflərin fərqli qərarı olmazsa, COP hər il keçirilir. COP-un ilk tədbiri 1995-ci ilin martında Berlində baş tutub, katibliyi Bonn şəhərində yerləşir. COP-a sədrlik rotasiya əsasında BMT-nin 5 regionunun - Afrika, Asiya, Latın Amerikası, Karib Hövzəsi və Avropa (Mərkəzi, Şərqi, Qərbi və digər) ölkələrinə keçir. Həmçinin bu regionlardakı qrup ölkələri arasında da sədrliklə bağlı növbələşmə mövcuddur. Azərbaycanın təşkilata sədrliyinə dair qərar da məhz Şərqi Avropa Qrupu ölkələrinin yekdil rəyi əsasında verilib. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası, yəni COP29 bu il Azərbaycanda keçiriləcək. Bununla bağlı qərar COP28-in ötən il dekabrın 11-də Dubayda keçirilmiş plenar iclasında qəbul olunmuşdur.

Qeyd etməliyik ki, COP29 konfransına ev sahibliyini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirilir. Bu missiyaya uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü il Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilmişdir. “Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək”, – deyə Prezident İlham Əliyev ötən il dekabrın 15-də COP29-un ölkəmizdə

keçirilməsi ilə əlaqədar müşavirədə vurğulayıb [17.3]. Bu tədbirin Bakıda keçirilməsi Azərbaycanın nüfuzunun daha da artmasına və ölkə reallıqlarının dünya ictimaiyyətinə birbaşa və asan çatdırılmasına böyük töhfə verəcəkdir [17.6; 17.8].

Qeyd etməliyik ki, COP tədbirlərinin məqsədi dünyada karbon qazının (CO2) miqdarını sənayeləşmədən əvvəlki dövrdə olduğu kimi, 1,5 dərəcə Selsi ilə məhdudlaşdırmaq üzrə irəliləyişə nail olmaqdan ibarətdir. Bundan başqa, inkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyinin təsirini azaltmaq və uyğunlaşmaqda kömək etmək üçün maliyyə yardımı üçün fond toplayırlar. İnkişaf etməkdə olan ölkələrin artıq üzləşdiyi iqlim dəyişikliyinin qaçınılmaz təsirlərinə və bu təsirlərin aradan qaldırılması üçün maliyyə və digər dəstəyə ehtiyacı var. Bu dəstək olmadan inkişaf etməkdə olan ölkələr təmiz enerji mənbələrinə keçid edə, qlobal karbon qazı ifrazını azalda bilməzlər. COP29 Konfransı iştirakçı ölkələr üçün yeni öhdəliklər götürmək və iqlim böhranını həll etmək üçün konkret addımlar atmaq üçün bir fürsətdir [17.5].

Ətraf mühitin qorunması tədbirləri ilə bağlı neqativ hal kimi qeyd etməliyik ki, dünyada baş verən müharibələr, kimyəvi və hərbi silahların sınaq edilməsi və digər hadisələr təbiətdə ekoloji sistemin pozulmasına gətirib çıxarır. Modern müharibələr isə daha acınacaqlı vəziyyət yaradır. Hal-hazırda bəşəriyyət üçün ən təhlükəli olan atom silahlarının istehsalının qarşısının alınması və onların məhvi prosesidir. Belə ki, bu silahların tətbiqi nəticəsində həm havanın tərkibi çirklənir, həm də canlı aləmi məhv olur. İri çaplı silahların istifadəsi hətta yer landşaftının dəyişilməsinə səbəb olur. Müharibəyə hazırlıq mərhələsində keçirilən hərbi təlimlər zamanı hərbi texnikadan ətraf mühitə atılan zəhərli tullantılar, bombardmançı təyyarələrdən çıxan tüstü və bombaların şok dalğaları təbiətin məhvinə gətirib çıxarır.

Müasir müharibələrin ətraf mühitə göstərdiyi zərərli təsirlər üç qrupa bölünür:

1. Müharibəyə hazırlıq mərhələsində olan təsir;
2. Müharibə zamanı ətraf mühitə təsirlər;
3. Müharibədən sonra ortaya çıxan problemlər.

Praktiki olaraq,fikrimizcə müasir silahlar həm partlayıcı gücünə görə, həm də toksiki kimyəvi tərkiblərinə görə öldürücü hesab edilir. Belə ki, ağır bombardmançı təyyarədən atılan bomba ətrafa 3 min dərəcəlik isti yayır, bununla da, flora-fauna ilə yanaşı, torpağın qalın qatları da yanır. Həmçinin onu da qeyd etmək lazımdır ki, müharibə zamanı əhali yaşadıqları ərazini tərk edərək başqa yerlərə köçürlər, beləliklə, iqtisadi və sosial infrastruktur məhv olur. Deməli, göstərilən faktorlar bütövlükdə ekosistemə, bioloji aləmin və bitkilərin məhvinə səbəb olur.

Müharibə zamanı meşə massivlərinin məhv edilməsi, yandırılması atmosferdə karbon tullantılarının artmasına və oksigen səviyyəsinin aşagı düşməsinə səbəb olur. Hal-hazırda dünyanın bir çox ərazisində radiasiya çirkləndirilməsi mövcuddur və bu amil uşaqlarda fiziki, əqli inkişafa sərt maneçilik yaradır. Müharibə zamanı, təbii ki, su mənbələri çirklənir. Dünyada içməli su ehtiyatları çox az hissəni təçkil edir ki, əgər bu hal davam etsə dünyada içməli su qıtlığı yarana bilər. Hal-hazırda BMT tərəfindən bu halların qarşısını almaq üçün bir sıra tədbirlər görülür, müvafiq müqavilələr imzalanır. Bu müqa-

vilələrdən biri də səhralaşmanın dayandırılması prosesi ilə bağlıdır.

Postmüharibə dövründən sonra yenə də müharibənin zərərləri davam edir. Məsələn: mülki əhali və heyvanlar mina qurbanı olurlar, yaşayış yerləri dağıdılır, tarixi-mədəni abidələr məhv olur və s. Dünyada olan müharibələr – Rusiya-Ukraniya müharibəsi, Qarabağ müharibəsi, Körfəz müharibəsi, ən əsası 1-ci və 2-ci Dünya müharibələri ətrafa ağır zərbələr vurmuşdur. Ekoloji cəhətdən ən təmiz hesab olunan ərazilər Amerika və Kanadada olan meşə, Tundra əraziləridir. Müharibə qalıqları atmosferin ozon təbəqəsinə də öz mənfi təsirini göstərir. Müharibə zamanı ətraf mühitin çirkləndirilməsinin bir səbəbi də odur ki, döyüşən tərəflər neft anbarlarını, elektrik enerji terminallarını bombalayırlar. Belə ki, Vyetnam müharibəsi zamanı ümumi meşə örtüyünün 44 faizi məhv edilmişdir. Yəmən, Suriya, Liviya kimi ərazilərdə neft məhsulunun yandırılması nəticəsində atmosferdə CO2 faizi artmışdır. 2017-2018 illərdə Böyük Britaniya ordusunun yaratdığı çirkli tullantılar 60 ölkənin ümumi emissiyalarından çox olub. Müharibələr hər zaman biosferi dəyişmək gücünə malikdir.

Qeyd etməliyik ki, Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində Azərbaycanın sosial-iqtisadi infrastrukturu, maddi-mənəvi irsi, ətraf mühit və təbii sərvətlərinə vurulmuş zərərin miqdarı 300 milyard dolları ötmüşdür [17.9].Vurulmuş zərər, əsasən, sahə-faydalı qazıntı yataqlarının talanı, biomüxtəlifliyin, meşələrin və nəqliyyat infrastrukturunun məhv edilməsi, torpaqların sıradan çıxarılması, istifadədən məhrum olunması, su, su anbarları və ətraf mühitin çirkləndirilməsi üzrə ekoloji zərərləri, o cümlədən əhaliyə dəymiş mənəvi-ekoloji zərərləri əhatə edir [17.7]. Ermənistanın işğal etdiyi ərazilərimizdə hələ də ekoloji fəlakət hökm sürməkdədir. Son məlumatlara görə, Qarabağ bölgəsində erməni işğalı altında qalan 269 min hektar meşə sahəsi qəddarcasına qırılıb, həmin ərazilərdə nadir bitki və heyvanat aləmi məhv edilib. Qubadlı və Laçın rayonlarında qırmızı palıdların, Kəlbəcərdəki "Ayı fındığı meşələri"nin yerində boş ərazi qalıb. Bu isə, o deməkdir ki, müharibə təkcə insanları deyil, həm də digər canlıları məcburi köçkün vəziyyətinə salır. Beləliklə, müharibə nəticəsində digər fəsadlarla yanaşı, ətraf mühitə, təbiətə xeyli miqdarda zərər yetirilir. Elə buradaca ümummilli lider Heydər Əliyevin söylədiyi bir tezisi xatırlamaq yerinə düşür: “Biz təbiətə qarşı zor işlədə bilmərik... Təbiət Allah tərəfindən yaradılmışdır. Onu qorumaq isə bizim müqəddəs vəzifəmizdir” [4]. İnsanların sağlam ətraf mühitdə yaşaması üçün bu tezis daim xüsusi aktuallıq kəsb edir.

Həmçinin avtomobil və dəmir yolları, körpülər, su təchizatı və çirkab sularının atılması kimi infrastrukturlar müharibənin hədəfləri sferasındadır. Təbii mühitin bir hissəsini təşkil etsələr də, müharibə və terror hücumları zamanı çirkab su təmizləyici qurğunun dağıdılması suyun və torpağın keyfiyyətinə mənfi təsir göstərir. Belə ki, 1990-cı ildə Xorvatiyada kimyəvi istehsal müəssisələrinin bombalanması nəticəsində kimyəvi tullantılar su və torpaqla qarışıb təbiəti məhv etmişdir. Bir sözlə, müharibələr təbii mühitə əhəmiyyətli dərəcədə zərər verir.

Müharibə zamanı əsgərləri qidalandırmaq ehtiyacı brakonyerliyə sövq edən bir amildir. Məsələn, Sudandakı müharibə vaxtı əsgərlər və mülki şəxslər üçün ət axtarışında olan brakonyerlər bu bölgədəki heyvan (fauna)

populyasiyasının azalmasına səbəb olmuşdur.

Müharibənin ekologiyaya göstərdiyi mənfi təsir faktorunu nəzərə alaraq, BMT konvensiyaları müharibə taktikası olaraq, təbiətə zərər vurulması hallarını qadağan edir. Belə ki, BMT-nin müvafiq qətnamələrində təbiətin bəşəriyyətin ortaq dəyəri və mirası olduğuna işarə edilir. Təşkilatın Ətraf Dəyişiklik Konvensiyası ilə qarşıdurmalarda bitki və ağacları susuzlaşdırılması üçün herbisidlərin istifadəsini qadağan edilir. Müharibələrin dağıdıcı təsiri insanlara qarşı yönəlməklə yanaşı, eyni zamanda, həhalinin və digər canlıların məskunlaşdığı təbiət və ətraf mühit üçün də ciddi təhdiddir. Hərbi obyektlərin istifadə etdiyi kimyəvi dərman və silahlar, yüksək enerji və hərbi nəqliyyat vasitələri də ekologiyaya ciddi zərər yetirir. Hərbi texnika, partlayıcı maddələr və silahlar da meşələrin qırılmasına və yaşayış massivlərinin məhv edilməsinə səbəb olur. Məsələn, Vyetnam müharibəsində törədilən bombardmanlar nəticəsində 2 milyon hektar ərazi məhv edilmişdir. Eləcə də Kambocada vətəndaş müharibəsi nəticəsində meşələrin 35% -i məhv edilib, atom bombasının yaratdığı radiasiya insanlarda və heyvanlarda genetik mutasiyaya səbəb olub və s.

Bioloji, kimyəvi və nüvə silahlarına dair sınaqların keçirilməsi, onların istifadəsi və daşınması təbiətə ciddi dağıdıcı təsir göstərir. Bu silahlar torpaq və su üzərində qalıcı təsirlər qoyaraq gələcək nəsillərin sağlamlığına, eləcə də yaşayış mühitinin məhv edilməsinə birbaşa zərərli təsir göstərir. Bu, başqa sözlə ifadə etsək, yaşayış sahələrinin kimyəvi, bioloji və nüvə silahlarının istifadəsi ilə məhv edilməsidir. Bunun ən tanınmış nümunəsi, Vyetnam müharibəsi zamanı "Agent Orange" adlı herbisidin istifadəsidir. ABŞ bu herbisidləri partizan əsgərləri gizlənən bataqlıqlara və meşələrə püskürürdü. Bu zaman istifadə edilən herbisid məmulatı geniş miqyasda kənd ərazisini məhv etmişdir. Herbisid insanlarda və məməlilərdə əzələ və sümük xəstəlikləri və anadangəlmə anomaliyalar kimi təsirlər göstərir.

Müharibə insanların kütləviləşməsinə, yeni yaşayış yerlərinin axtarılmasına səbəb olur ki, bu axtarış nəticəsində ekoloji fəlakətlər baş verir. İnsanlar yeni ərazilərə yerləşməli olduqda, meşə massivlərinin qırılması, nəzarətsiz ov, torpaq və suyun insan tullantıları ilə çirklənməsi kimi ekoloji problemlər meydana gəlir. Belə ki, müharibə vaxtı bir çox flora və fauna növləri məhv edilir. Müharibə aparılması vasitələri inkişaf etdikcə isə, təbiətə daha ciddi zərərli təsirlər göstərilir, habelə planetin bioloji və mədəni müxtəlifliyi azalır, həm də ətraf mühitin məhvinə, yaralanmasına gətirib çıxarır. Hiroşima və Naqasakinin atom bombardmanı – bəşər tarixində nüvə silahının hərbi məqsədlə tətbiq olunduğu ilk və yeganə nümunədir. Atom bombası böyük partlayışlara və onminlərlə insanın ölümünə səbəb olmuşdur. Çernobıl, Fukusima kimi atom elektrik stansiyalarındakı qəzalar da insanlığa dəhşət, fəlakət yaşatmışdır, Onların hər birinin təbiətə, ətraf mühitə vurduğu zərbələr isə ölçüyəgəlməz səviyyədədir. Digər tərəfdən, hər bir ölkənin silahlı qüvvələri müxtəlif silah növlərini sınaqdan keçirdikdə, həmçinin köhnəlmiş silahlar və döyüş sursatlarını məhv etdikdə torpaqdan, akvatoriyadan, hava boşluğundan istifadə edərkən ekoloji problemlər yaranır.

Sözügedən sahədə ictimai münasibətlərin tənzimlənməsi, qorunması və hüquqpozmalara qarşı məsuliyyət tədbirlərinin görülməsi hər bir dövlətdə qanunvericilik səviyyəsində

müəyyənləşdirilmişdir. Belə ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (2015-ci il) XXV fəsli (İXM, maddə 233-275) ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydalarının tənzimlənməsinə həsr olunmuşdur [3, s.167-190].

Həmçinin sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etmək, insan haqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaq, habelə cinayətlərin qarşısını almaq Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (CM,1999-cu il) təsbit edilmiş mühüm vəzifələrdir. Bu vəzifələri həyata keçirmək üçün CM-də cinayət məsuliyyətinin əsasları və prinsipləri, şəxsiyyət, cəmiyyət və dövlət üçün təhlükəli olduğuna görə cinayət sayılan əməllərin dairəsi və həmin cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növləri, həddi və həcmi, habelə digər cinayət-hüquqi xarakterli tədbirlər müəyyən edilmişdir. Adıçəkilən Məcəllənin on altıncı fəsli "Sülh və insanlıq əleyhinə cinayətlər", on yeddinci fəsli "Müharibə cinayətləri", iyirmi səkkizinci fəsli isə "Ekoloji cinayətlər" adlanır [2, s.80-91,203-212]. Beləliklə, qeyd edə bilərik ki, ölkəmizdə flora və faunanın, təbiətin qorunması, ətraf mühitin, təbii ehtiyatların mühafizəsi və bərpası davamlı inkişaf konsepsiyamızın tərkib hissəsinə çevrilmişdir. Ekoloji təhlükəsizliyin təmin olunması üçün ətraf mühitin çirklənməsinin minimuma endirilməsi, indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii sərvətlərdən səmərəli istifadə Azərbaycan dövlətinin ekoloji siyasətinin əsas istiqamətlərindən, başlıca prioritetlərdən biridir. Toxunulmuş məsələyə nə qədər önəm verildiyi amili 2010-cu ilin Azərbaycanda "Ekologiya ili" elan olunması ilə bir daha öz təzahürünü tapır [17.10].

Göründüyü kimi, ölkəmizin ekoloji qanunvericiliyi müasir dövrdə, o cümlədən müharibə şəraitində ətraf mühitin ekoloji problemlərinin həllinə əsaslı hüquqi zəmin yaradır.

**İstifadə edilmiş mənbələr**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, "N" nəşriyyatı, 2015, 52 s.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2013, 348 s.
3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi / Buraxılışa məsul: Kərimli B.C. Bakı, "Hüquq Yayın Evi", 2016, 392 s.
4. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 1-46 kitab / Buraxılışa məsul: R.Ə.Mehdiyev. Bakı, Azərnəşr, 1997-2013.
5. İlham Əliyev. İnkişaf – məqsədimizdir. 1-126 kitab / Bakı, Azərnəşr, 2003-2024.
6. Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı,"Günəş-B" nəşriyyat-poliqrafiya müəssisəsi, 2018, I cild, ümumi hissə,752 s.; II cild, xüsusi hissə,704 s.
7. Əliyev E.Ə., Hüseynova F.E., Qəmbərov H.D. İqtisadi hüquq. Dərslik. Bakı, "Günəş-B" nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, 624 s.
8. Əliyev Ə. İ. İnsan hüquqları.Dərslik.Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşr. Bakı, "Nurlar" nəşriyyatı, 2019, 352 s.
9. Hüseynov S.Y., Sarıyev R.M. Ekologiyanın fəlsəfi və hüquqi məsələləri. Bakı, "Təknur" MMC, 2007, 216 s.
10. Konstitusiya və hüququn əsasları.Dərslik. 8-ci nəşr / Allahverdiyev S.S. Bakı, "Hüquq Yayın Evi",2018,452 s.
11. Qənbərov D. M. Ekologiya hüququ. Ümumi hissə. Dərs vəsaiti. Bakı: "Sabah" nəşriyyatı,2016, 380 s.

12. Məhərrəmov A. A. Ekoloji təhlükəsizliyin beynəlxalq və dövlətdaxili hüquqi aspektləri (nəzəri və praktiki problemlər). Bakı, Gənc Hüquqşünaslar Birliyi, 2010, 412 s.
13. Məhərrəmov A. A. Ekoloji təhlükəsizlik sferasında beynəlxalq mexanizmlər. Bakı, “Şirvannəşr”, 2009, 490 s.
14. Polis hüququ. Dərslik.Yenidən işlənilmiş və təkmilləşdirilmiş II nəşr / Əliyev E.Ə. Bakı, “Günəş-B” nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, 552 s.
15. Гусейнов Т. И. Международные национально-правовые аспекты экологической безопасности. Баку: Издательство «Бакы Университети», 2017, 348 с.
16. Юридическая энциклопедия . Издание 5-е, дополненное и переработанное/Под ред. М.Ю.Тихомирова. М.:Юринформцентр,2005,972 с.
17. Elektron informasiya resursları (URL – Uniform Resourse Locator)
17.1. www.aliyev.by.ru;
17.2. www.e-qanun.az;
17.3. www.president.az;
17.4.www.kabmin.gov.az;
17.5. https://www.bbc.com/azeri/articles/cpr3vgv5r95o;
17.6. https://azertag.az/xeber/cop_nedir_ve_cop29_a_ev_sahibliyi_azerbaycana_ne_verecek-2875693 );
17.7. https://apa.az/az/dagliq_qarabag/ xeber_isgal_olunmus_erazilerde_azerbaycana_dey_-415351;
17.8. https://cop29.az/az/pages/what-is-cop29;
17.9. https://unec.edu.az/application/uploads/2023/10/sg-nd-rov-R-van-M-bariz.pdf (İsgəndərov R.M. “Ölkə ərazilərinin işğalı nəticəsində Azərbaycan iqtisadiyyatına vurulmuş zərərin statistik təhlili” mövzusunda magistr dissertasiyası. Bakı, 2022, 79 s.);
17.10. https://www.yeniazerbaycan.com/MEDIA_e71769_az.html (Yeganə Bayramova. Ətraf mühitin mühafizəsi: Dövlətin prioritet məsələsi!).

## ЭКОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ ОКРУЖАЮЩЕЙ СРЕДЫ В СОВРЕМЕННЫЙ ПЕРИОД: ПРАВОВЫЕ АСПЕКТЫ

**Этибар Али оглы Алиев,**
**член Конфедерации юристов Азербайджана, профессор кафедры ЮНЕСКО «Права человека и информационное право» Юридического факультета акинского государственного университета, доктор юридических наук.**
Э-почта: a-etibar@rambler.ru,
телефон:+99450 220 24 42;

**Лейла Эйтибар кызы Мирзаева,**
**судья Сумгайытского административного суда, юристь-правовед.**
Э-почта: leylamirzayeva88@mail.ru

В статье авторы рассматривают правовые аспекты регулирования экологических проблем окружающей среды в современную эпоху. Отмечается, что защита окружающей среды и экологии, а также природных ресурсов является важным государственным и национальным вопросом. Поскольку жизнь человека и развитие общества тесно связаны с природой и окружающей средой в человечестве, жизнь в здоровой окружающей среде для людей и будущих поколений обусловлена фактором эффективной защиты окружающей среды и природных ресурсов. В этом контексте особое значение приобретает регулирование эколого-правовых отношений.

**Ключевые слова:** окружающая среда, природные ресурсы, экологическая безопасность, права человека, атмосфера, животный и растительный мир, эколого-правовые отношения, правовое регулирование.

## ECOLOGICAL PROBLEMS OF THE ENVIRONMENT IN THE MODERN PERIOD: LEGAL ASPECTS

**Etibar Ali oglu Aliyev,**
**Member of the Azerbaijan Lawyers Confederation, Professor of the UNESCO Chair "Human Rights and Information Law", Faculty of Law, Baku State University, Doctor of Law.**
E -mail: a-etibar@rambler.ru,
phone: +99450 220 24 42;

**Leyla Eytibar gizi Mirzayeva,**
**judge of Sumgayit Administrative Court, jurist-lawyer.**
E-mail: leylamirzayeva88@mail.ru

In the article, the authors consider the legal aspects of the regulation of ecological problems of the environment in the modern era. It is noted that the protection of the environment and ecology, as well as natural resources, is an important state and national issue. Since human life and development of society are closely related to nature and the environment in humanity, living in a healthy environment for people and future generations is conditioned by the factor of effective protection of the environment and natural resources. In this context, the regulation of ecological-legal relations is of particular importance.

**Key words:** environment, natural resources, ecological security, human rights, atmosphere, fauna and flora, ecological-legal relations, legal regulation.

## MODERN DÖNEMDE ÇEVRENİN EKOLOJİK SORUNLARI: HUKUKİ YÖNLER

**Etibar Ali oqlu Aliyev,**
**Azerbaycan Avukatlar Konfederasyonu Üyesi, UNESCO "İnsan Haklarıve Bilgi Hukuku" Kürsüsü Profesörü, Hukuk Fakültesi, Bakü Devlet Üniversitesi, Hukuk Doktoru.**
E-posta: a-etibar@rambler.ru,
telefon: +99450 220 24 42;

**Leyla Eytibar kızı Mirzayeva,**
**Sumgayıt İdare Mahkemesi hakimi, avukat.**
E-posta: leylamirzayeva88@mail.ru

Makalede yazarlar, modern çağda çevrenin ekolojik sorunlarının düzenlenmesinin hukuki yönlerini ele almaktadır. Doğal kaynakların yanı sıra çevre ve ekolojinin korunmasının da önemli bir devlet ve milli mesele olduğu kaydedildi. İnsan yaşamı ve toplumun gelişimi doğayla ve insanlıkta çevreyle yakından ilişkili olduğundan, insanların ve gelecek nesillerin sağlıklı bir çevrede yaşaması, çevrenin ve doğal kaynakların etkin bir şekilde korunması faktörüne bağlıdır. Bu bağlamda ekolojik-hukuk ilişkilerinin düzenlenmesi ayrı bir önem taşımaktadır.

**Anahtar kelimeler:** çevre, doğal kaynaklar, ekolojik güvenlik, insan hakları, atmosfer, fauna ve flora, ekolojik-hukuk ilişkileri, yasal düzenleme.